## HÜQUQ THE LAW ПРАВО

DOI: 10.36719/AEM/2007-2020/55/76-79

**Rauf Əhəd oğlu Şəmsizadə**
Bakı Dövlət Universiteti

# TƏKRAR CİNAYƏTLƏRİN TÖVSİFİ MƏSƏLƏLƏRİ

***Açar sözlər:*** *cinayətlərin çoxluğu, cinayətlərin təkrarlığı, cinayətlərin tövsifi, təkrar cinayətlərin tövsifi*
***Keywords:*** *multiplicity of crimes, repetition of crimes, qualification of crimes, qualification of repeated offences.*
***Ключевые слова:*** *множественность преступлений, повторность преступлений, квалификация преступлений, квалификация повторных преступлений*

Yaranan ictimai münasibətləri tənzimləməyə, ölkənin konstitusiya quruluşunu mühafizə etməyə və möhkəmləndirməyə xidmət edən Azərbaycan cinayət qanunvericiliyi insanın, vətəndaşın hüquq və azadlıqlarının müdafiə edilməsinin təmin olunmasında mühüm hüquqi rol oynayır. İctimai münasibətlərin mühafizəsi və möhkəmləndirilməsi müxtəlif yollar və metodlarla gerçəkləşdirilir. Müəyyən qanunvericilik göstərişləri öz davranışını qüvvədə olan qanunların tələblərinə uyğun quran vəzifəli şəxslərin və ayrı-ayrı vətəndaşların hərəkətlərinə ciddi tənzimləyici təsir göstərir. Digər tərəfdən ictimai münasibətlərin iştirakçıları arasında mübahisə və ya münaqişələrin yarandığı zaman dövlətin məcburiyyət tədbirinin tətbiqi zərurəti yaranır. Qanun normasının tətbiqinin reallığı dövlətin məcburiyyət tədbirinin qüvvəsi ilə təmin olunur.

Azərbaycan Respublikası cinayət qanunvericilik normalarının tətbiqi mürəkkəb və çox şaxəli prosesdir. Bu, cinayət hüquq normalarının müxtəlif xarakterli olması ilə bağlıdır. Belə ki, məsələn, Cinayət Məcəlləsinin (CM) Ümumi hissəsinin normalarının tətbiqi Məcəllənin Xüsusi hissəsinin normalarının tətbiqi ilə müqayisədə öz spesifikliyinə malikdir. Müraciət edilən bu tədqiqat cinayət hüquq normalarının tətbiqində əsas mərhələlərindən birinə – təkrar törədilən cinayətlərin tövsifi məsələlərinə həsr edilmişdir.

Hüquq ədəbiyyatında deyildiyi kimi, cinayətlərin tövsifi anlayışı nəzəriyyə və praktikada iki mənada işlədilir: a) tövsif müəyyən məntiqi proses, bu və ya digər şəxsin nəzərdən keçirdiyi konkret hadisənin Cinayət Məcəlləsinin normasında göstərilən cinayət tərkibinin əlamətlərinə uyğunluğunu (eyniliyini) müəyyənləşdirmək üzrə fəaliyyəti kimi; b) tövsif ictimai təhlükəli əməlin müəyyən hüquqi qiymətləndirilməsi kimi (5, 7). Cinayətlərin tövsifinin yuxarıda qeyd edilən mənası anlayışı bir-biri ilə sıx bağlıdır. V.N.Kudryavtsev haqlı olaraq yazır ki, «bu aspektlərin əlaqəsini və birliyini qeyd etmək onların arasındakı fərqləri göstərməkdən daha vacibdir. Ona görə də tövsif anlayışının tərifində onun hər iki mənasının yerləşdirilməsi və cinayətin tövsifini törədilmiş əməlin əlamətləri ilə cinayət norması ilə nəzərdə tutulan cinayət tərkibinin əlamətləri arasında dəqiq uyğunluğunun və hüquqi təsbitinin müəyyən edilməsinin müəyyənləşdirilməsi məqsədəuyğundur (4, 7-8).

Görkəmli alim F.Y.Səməndərovun fikrincə, «tövsif – bu, ərəb mənşəli «tövsiyə» sözündən olub, necə hərəkət etmək, bir işi necə görmək haqqında təklif, məsləhət, tapşırıq vermək mənasını ifadə edir. Cinayət hüququnda baş vermiş cinayətə görə məsuliyyətin həllində qanunun bu və ya digər normasını seçməyə dair fəaliyyət mənasında işlədilir. Cinayətin tövsifində törədilən cinayətə faktiki hüquqi qiymət verilir» (3, 35-36). Lakin ərəb dilində «tövsif sözün kökünə müraciət edilsə, bu öz tövsiyə sözünə deyil, «vəsf» sözünə uyğun gəlir. Nəzərə alsaq ki, tövsiyə sözünün bir mənası da vəsiyyət sözünə uyğundur, qeydlərimiz yerini tapır. Beləliklə, cinayətin tövsifi dedikdə, konkret törədilmiş əməlin cəhətləri ilə cinayət hüquq normasında nəzərdə tutulan tərkib əlamətləri arasında eyniliyi müəyyən etməklə, müvafiq hüquqi sənəddə öz əksini tapan və cinayət-hüquqi nəticələrə səbəb olan əmələ verilən cinayət-hüquqi qiymət başa düşülür.

Daha konkret ifadə etsək, əməlin tövsifi hüquqşünasın praktiki fəaliyyət növü, fəlsəfi-hüquqi mənada idrak prosesidir. Tövsif, bu sözün həqiqi mənasında qanunla nəzərdə tutulan cinayət tərkibi əlamətlərinin tövsif edilən cinayətlərin əlamətləri ilə müqayisə edilməsindən ibarətdir. Deməli, cinayətin tövsifi həm də qanun normasını tətbiq edən şəxsin intellektual fəaliyyətinin (əqli əməyinin) əlahiddə növündən ibarətdir.

Məlumdur ki, cinayət hüquq münasibətlərinin yaranmasının son məqamı cinayət məsuliyyətidir. Cinayət məsuliyyətinin yeganə əsasına isə törədilmiş ictimai təhlükəli əməldə cinayət tərkibinin əlamətlərinin olması təşkil edir. Deməli, əgər törədilmiş əməldə cinayət hüquq normasında nəzərdə tutulan tərkib əlamətləri mövcud olmasa, cinayət məsuliyyəti də istisna ediləcəkdir. Hüquq ədəbiyyatında deyildiyi kimi, «…əməldə

müvafiq cinayət tərkibi əlamətlərinin mövcud olmasının rəsmi tanınması isə yalnız məhkəmənin hökmündə aparılan tövsifdə ifadə olunur. Odur ki, cinayətin, məhkəmənin qanuni qüvvəyə minmiş hökmündə aparılan tövsifi cinayət məsuliyyətinin tətbiqinin hüquqi təminatıdır (1, 23).

Hamılıqla qəbul olunmuşdur ki, cinayətlərin təkrarlığı cinayətlərin çoxluğunun növlərindən birini təşkil edir. Cinayətlərin təkrar törədilməsi anlayışı Azərbaycan Respublikasının CM-nin 16-cı maddəsinin 1-ci hissəsində öz əksini tapmışdır. Orada deyilir: «Bu Məcəllənin eyni bir maddəsi ilə nəzərdə tutulmuş cinayətin iki və ya iki dəfədən çox törədilməsi cinayətin təkrar törədilməsi hesab edilir».

Fikrimizcə, cinayətlərin təkrarlığı haqqında yalnız o halda danışmaq olar ki, əvvəllər və yenidən törədilmiş ictimai təhlükəli əməllər eyni cinayət tərkibi əlamətlərinə malik, eləcə də müstəqil cinayətlərdən ibarət olsunlar. Digər tərəfdən, müəyyən şəxs tərəfindən iki və daha çox cinayətin törədilməsi heç də həmişə təkrar cinayətlər kimi tövsif edilə bilməz. Əməlin cinayətin təkrarlıq əlaməti üzrə tövsifini istisna edən halların aşağıdakı qruplarını differensiasiyalaşdırmaq olar:

1) böyük ictimai təhlükəlilik təşkil etməyən ictimai təhlükəli əməllər törətmiş şəxslərin cinayət məsuliyyətindən azad edilməsi;

2) cinayət məsuliyyətinə cəlbetmə müddətlərinin keçməsi və ya ittiham hökmünün icra olunması;

3) aministiya və ya əfv etmə aktlarının verilməsi;

4) şəxsin məhkumluğunun ödənilməsi və ya onun üzərindən götürülməsi.

Sonuncu hal cinayət qanunvericiliyində də birbaşa nəzərdə tutulmuşdur. Belə ki, AR CM-nin 16-cı maddəsinin 3-cü hissəsinə uyğun olaraq əvvəllər törətdiyi cinayətə görə bu məcəllə ilə müəyyən edilmiş qaydada cinayət məsuliyyətindən azad olunmuş, yaxud məhkumluğu götürülmüş və ya ödənilmiş şəxs tərəfindən həmin cinayətin yenidən törədilməsi cinayətin təkrar törədilməsi hesab edilmir.

Yuxarıda deyilənlərdən başqa, əgər qüvvədə olan cinayət qanununda birbaşa nəzərdə tutulmamışdırsa, iki və ya daha çox eyni eynicinsli cinayət təkrarlıq yaratmır.

Ən diqqətəlayiq məsələ şəxsin törətdiyi, lakin qüvvədə olan cinayət qanunvericiliyinə əsasən cinayət məsuliyyətindən azad edildiyi cinayətin törədilməsinin təkrarlıq yaradıb-yaratmamasıdır. Nəzərə almaq zəruridir ki, şəxsin cinayət məsuliyyətindən azad edilməsi hələ onun cinayət törətmədiyi demək deyildir. Bu nəticə belə bir mübahisəsiz müddəaya əsaslanır ki, ictimai təhlükəli əməlin törədilməsinə görə cinayət məsuliyyəti aşağıdakı hallarda meydana çıxa bilər: əgər əməl cinayət tərkibi əlamətlərinə malik olmazsa, təbii olaraq cinayət məsuliyyətindən azad etmək haqqında heç bir söhbət gedə bilməz. Qeyd olunanlar bilavasitə qanunun müvafiq normasının mətnindən irəli gəlir.

İstintaq, prokurorluq və məhkəmə orqanları tərəfindən cinayətlərin təkrarlığının tövsifi məsələlərinin həlli aşağıdakılardan asılıdır:

– təkrarlığın ifadə olunduğu ictimai təhlükəli əməllərin xarakterindən;

– təkrar cinayətlərə görə məsuliyyət məsələlərini reqlamentləşdirən cinayət hüquq normalarının məzmunundan.

Tövsif prosesində istintaq, prokurorluq və məhkəmə orqanları işin konkret praktiki hallarını aşkar surətdə tətbiq edilməli olan cinayət hüquq normasını dəqiq müəyyən edir, əmələ hüquqi qiymət verən rəsmi akt halında rəsmiləşdirilən mahiyyəti üzrə qərar qəbul edirlər. Cinayət qanunvericiliyinin Xüsusi hissəsinin maddələri bir sıra hallarda tövsifedici hallar içərisində cinayətlərin təkrarlığını nəzərdə tutmurlar və bu zaman o, qanunvericiliyə uyğun olaraq CM-nin Xüsusi hissəsinin müvafiq maddələrinin (və ya maddələrin müvafiq hissələrin) sanksiyaları çərçivəsində cinayət məsuliyyətinin gücləndirilməsinə səbəb ola bilər.

Qeyd edilən hallarda təkrarlıq faktı əməlin ağırlıq və təqsirləndirilən şəxsin şəxsiyyətinin ictimai təhlükəlilik dərəcəsinin qiymətləndirilməsi üçün nəzərə alınır, lakin o, əməlin tövsifinə təsir göstərmir. Burada hüquqi tövsif ilk dəfə törədilmiş müvafiq cinayətin tövsifindən heç nə ilə fərqlənmir. qanunun oxşar cinayətlərin təkrarlığına görə cəzanı şiddətləndirdiyi, onu tövsifedici hallar sırasında nəzərdə tutduğu zaman məsələ başqa şəkil alır. Qeyd etmək lazımdır ki, tövsifedici təkrarlıq xüsusi residiv hallarını da əhatə edir. CM-nin başqa maddəsinin və ya maddənin hissəsinin nəzərdə tutduğu sair tövsifedici halların olmadığını zaman belə residivin mövcudluğu vaxt əməl ancaq CM-nin Xüsusi hissəsinin eyni cinayətin törədildiyi halda şəxsin məsuliyyətini müəyyən edən maddə, yaxud maddənin hissəsi ilə tövsif edilir.

Təqsirləndirilən şəxsin əvvəllər məhkum olunmadığı, tövsifedici hal kimi təkrarlığın eynicinsli əməlləri yaratdığı hallarda istintaq, prokurorluq və məhkəmə orqanları, bir qayda olaraq, cinayətləri cinayət hüquq normalarının məcmusu üzrə tövsif edirlər. Göstərilən qayda, o cümlədən müxtəlif formalarda (məsələn, soyğunçuluq, dələduzluq) törədildikdə xüsusi mülkiyyətin oğurluğunun təkrarlığı zamanı tətbiq edilir. Fikrimizcə, bu, düzgün təcrübə kimi qiymətləndirilə bilər. Bu ona əsaslanır ki, nəzərdən keçirilən situasiyalarda cinayət tərkibinin tövsifedici əlamətləri içərisində təkrarlığı nəzərdə tutan yalnız bir maddə (və ya həmin maddənin bir hissəsi) ilə tövsif etmə əməli tam əhatə etmədiyinə görə, öz mahiyyəti etibarilə də

düzgün hesab edilə bilməz. Həqiqətən də, məsələn, dələduzluqda sonra talama yolu ilə törədilən oğurluq hallarının tövsifi talamanın təkrarlığı, yəni iki talama aktının törədilməsi demək deyildir.

Eynicinsli cinayətlərdən təşəkkül tapan təkrarlığın cinayət hüquq normalarının məcmusu ilə tövsifinin düzgünlüyü hələ keçən əsrin 70-80-ci illərinin cinayət hüquq ədəbiyyatında da əsaslandırılmışdır. Məsələn, V.N.Kudryavtsev yazırdı ki, təkrarlığın qeyri-aşkar cinayətləri yaratdığı hallarda həm təkrarlıq (çünki qanun özü onlara təkrarlıq təyinatını verir), həm də məcmu) belə ki, cinayətlərdən hər biri CM-nin müstəqil maddəsində və ya maddənin hissəsində nəzərdə tutulur) mövcud olur (4, 311).

Cinayət tərkibinin ağırlaşdırıcı əlamətləri içərisində nəzərdə tutulan eynicinsli cinayətlərin (təqsirləndirilən şəxsin əvvəllər belə əməllərə görə məhkum edilmədiyi zaman) təkrarlığının tövsifi məsələsi diqqət mərkəzində olan ciddi problemdir. Müxtəlif kateqoriya işlərə aid olmaqla belə hallarda təkrarlığın tövsifi məsələləri istintaq, prokurorluq və məhkəmə orqanlarının praktikasında eyni cür həll edilmirlər. Belə ki, dövlət əmlakının və ya özgə əmlakın oğurluğuna dair işlə istintaq üzrə məhkəmə orqanları (digər tövsifedici əlamətlər olmamaqla) cinayət hüquq normalarının cinayətlərin təkrarlığı zamanı yüksək məsuliyyət müəyyən edən yalnız bir maddəsini tətbiq edirlər. Yəni hər bir cinayət CM-nin Xüsusi hissəsinin təkrarlığı tövsifedici hal qismində nəzərdə tutan maddəsi ilə müstəqil tövsif edilir.

Nəzərdən keçirilən situasiya ilə əlaqədar cinayət hüquq ədəbiyyatında digər mülahizələr də mövcuddur. Məsələn, V.N.Kudryavtsev belə hesab edir ki, tövsifedici təkrarlıq yaradan oxşar cinayətlər CM-nin bir maddəsi və ya onun müvafiq hissəsi ilə əhatə olunur, çünki burada məcmu ilə üst-üstə düşməyən təkrarlıq mövcud olur (4, 221). Bəs, əgər törədilmiş cinayətlərdən ikincisi başa çatmamış əməl olarsa, onu başa çatmış tək cinayətə və təkrar törədilən cinayətə sui-qəsdə görə məsuliyyət nəzərdə tutulan maddələrin məcmusu ilə tövsif etmək olarmı?

Fikrimizcə, nəzərdən keçirilən hallarda əməlin cinayətlərin təkrarlığını təşkil edən hallardan birinin başa çatmamış olub-olmamasından asılı olaraq tövsifinin mümkünlüyü haqqında məsələni müxtəlif mövqelərdən həll etmək olmaz. Cinayət məsuliyyətinin əsasları nöqteyi-nəzərindən başa çatmış cinayət tərkibi və cinayətə sui-qəsd tərkibi, eyni zamanda da cinayətə hazırlığın tərkibi bir-birindən fərqlənir. Cinayət qanunvericiliyi cinayətə sui-qəsdə və cinayətə hazırlığa görə, habelə cinayətin iştirakçıları və icraçıları üçün məsuliyyətin əsaslarını müəyyən edir. Başa çatmış və başa çatmamış cinayətlərin yaratdığı təkrarlığın mövcud olduğu hallarda tövsifin məcmu üzrə düzgünlüyünü hesab edərkən, başa çatmış cinayəti əhatə edən təkrarlığın həmin qaydalarla tövsifinin əsaslı olduğunu etiraf etmək lazımdır.

Tədqiqat işində mübahisə doğuran məsələlərdən biri CM-nin 16-cı maddəsinin 2-ci hissəsi ilə bağlıdır. Həmin normaya uyğun olaraq «bu Məcəllənin müxtəlif maddələri ilə nəzərdə tutulmuş iki və ya daha çox cinayətin törədilməsi, yalnız həmin Məcəllənin Xüsusi hissəsində birbaşa göstərilən hallarda cinayətin təkrar törədilməsi hesab edilir».

Ümumiyyətlə, CM-nin 16-cı maddəsinin 1 və 2-ci hissələrinin mətnindən təkrar cinayətlərin aşağıdakı növlərinin fərqləndirildiyi aydın görünür:

1) Cinayət qanununun bir maddəsində nəzərdə tutulan eyni cinayətin iki dəfə və ya iki dəfədən çox hallarda törədilməsilə müşayiət olunan təkrar cinayətlər;

2) cinayət qanunun Xüsusi hissəsinin müxtəlif maddələrində nəzərdə tutulan cinayətlərin iki dəfə və ya daha çox hallarda törədilməsilə müşayiət olunan təkrar cinayətlər.

Qeyd edilən məsələ hüquq ədəbiyyatında da müxtəlif mülahizələrin meydana çıxmasına səbəb olmuşdur. məsələn, F.Y.Səməndərov yazır ki, qanunun bir maddəsində nəzərdə tutulan eyni cinayətin iki dəfə və ya daha artıq hallarda törədilməsilə yaranan təkrar cinayətlər qanunla tərkib əlaməti kimi nəzərdə tutulursa, məsuliyyətin həllində belə təkrarlıq məlum əlamətə uyğun olaraq tövsif edilir (2, 400). Müəllif daha sonra davam edərək haqlı surətdə qeyd edir ki, «…müxtəlif cinayətlərin yaratdığı təkrarlığın anlayışı CM-nin 16-cı maddəsinin 2-ci hissəsinə və Məcəllənin Xüsusi hissəsinin 177-ci maddəsinin qeydinin göstərişinə söykənir» (2, 401). Buna görə də müəllif «müxtəlif cinayətlərin törədilməsindən yaranan təkrarlıq anlayışının qanunda saxlanmasını» (2, 401) məqsədəuyğun hesab etmir və yazır ki, birincisi, «belə hal təkrarlığı anlayışını süni surətdə genişləndirir, təkrar cinayətlərlə məcmu cinayətlər arasında fərqi aradan qaldırır. İkincisi, CM-nin 177-ci maddəsinin qeydinin 3-cü hissəsinin göstərişi köhnə Məcəllədən miras qalmışdır» (2, 401).

F.Y.Səməndərovun mövqeyinə biz də tərəfdar çıxır və Azərbaycan Respublikası CM-nin 16-cı maddəsinin qanundan çıxarılmasını təklif edirik. Biz bu mövqeyimizi onunla əsaslandırırıq ki, Azərbaycan SSR-in 1960-cı il CM-sinin 83-cü maddəsinin qeydi yeni istehsal üsuluna və sərbəst bazar iqtisadiyyatına keçiddən sonra öz təyinatını itirmişdir. Digər tərəfdən, CM-nin müxtəlif maddələrində nəzərdə tutulmuş iki və ya daha çox cinayətin törədilməsi həm cinayətin təkrar törədilməsinə görə, həm də cinayətlərin məcmusu üzrə cinayət məsuliyyətinə gətirib çıxarmamalıdır. CM-nin 16-cı maddəsinin 2-ci hissəsinin məzmunundan

doğan məna da məhz bundan ibarətdir. Bunu insan hüquq və azadlıqlarının konstitusiya təminatı baxımından da məqsədəuyğun hesab etmək olmaz.

Cinayətlərin çoxluğunun bir növü kimi, cinayətin təkrar törədildiyini aşağıdakı hallar şərtləşdirə bilər:

– təqsirləndirilən şəxsin əvvəllər törətdiyi cinayətə görə cinayət məsuliyyətindən azad edilməməsi;

– törədilən ictimai təhlükəli əmələ görə şəxsin cinayət məsuliyyətinə cəlb olunması müddətlərinin keçməməsi.

Beləliklə, tədqiqat işində ifadə edilənləri yekunlaşdıraraq bu nəticəyə gəlmək olar ki, cinayət hüququnda təkrarlıq anlayışı adı altında artıq bir dəfə törətdiyi cinayətdən sonra şəxs tərəfindən yeni eyni cinayətin törədilməsi halları nəzərdə tutulur.

Buna müvafiq surətdə ümumi və xüsusi təkrarlıq halını fərqləndirmək olar.

Ümumi təkrarlıq anlayışı ilə şəxs tərəfindən iki və daha çox müxtəlif cinayətin törədilməsi başa düşülür.

Xüsusi təkrarlıq o deməkdir ki, şəxs yenidən analoji və eynicinsli cinayət əməlini törədir.

Təkrarlıq anlayışı ilə həm başa çatmış, həm də çatmamış cinayət törətmə halları əhatə olunur. Əgər şəxs bir dəfə oğurluğa cəhd törətmiş, ikinci dəfə isə başa çatmış oğurluğa yol vermişdirsə, deməli, əməl təkrar törədilmiş cinayət kimi tövsif ediləcəkdir.

## Ədəbiyyat

1. Qarayev T.Y., Şəmsizadə R.Ə. Cinayətin tövsifinin nəzəri əsasları. B., ADU, 1989
2. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə: Dərslik, Bakı: Hüquq Yayım Evi, 2018
3. Səməndərov F.Y. Cinayət və cəza məsələləri. Bakı: BDU, 1994
4. Кудрявцев В.Н. Общая теория квалификации преступлений. М.: Юристь, 2001
5. Куринов Б.А. Научные основы квалификации преступлении. М., МГУ, 1984

## Qualifications of Repeated Offenses

**Summary**

Repetition of crimes can be general and special. General repetition refers to any new crime. For the qualification of a number of crimes, special repetition matters, i.e. commission by a person of a similar or homogenous criminal act. A peculiarity of the concept of repetition in the current criminal legislation of the Azerbaijan Republic is that in some cases it covers not only similar, but also a fairly wide range of homogeneous acts.

## Вопросы квалификации повторных преступлений

**Резюме**

Повторность преступлений может быть общей и специальной. Под общей повторностью понимается лицом любого нового преступления. Для квалификации ряда преступлений имеет значение специальная повторность, т.е. совершение лицом аналогичного или однородного преступного деяния. Особенностью понятия повторности в действующим уголовном законодательстве Азербайджанской Республики является то, что она охватывает в некоторых случаях не только аналогичные, но и довольно широкий круг однородных деяний.

Göndərilib: 16.06.2020 Qəbul edilib: 17.06.2020